**YENƏ DİLƏ GƏLDİ KÖNÜL RÜBABIM,**
**AXDI VƏRƏQLƏRƏ SÖZ YAVAŞ-YAVAŞ.**
**VƏTƏN ANAM MƏNİM, ÖMÜR KİTABIM,**
**ÜRƏK PIÇILDADI: YAZ YAVAŞ-YAVAŞ.**



**BUDAQ TƏHMƏZ**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*"Məmməd Araz" mükafatı laureatı*

## ŞAİR SÖZÜ MÜQƏDDƏSDİ

*İmadəddin Nəsimiyə*

Möhtacdı əzəl gündən dünya şair sözünə,
O kəlmələr günəştək yayılır yer üzünə,
Şairlərdi şax baxan həqiqətin gözünə,
Şair sözü müqəddəs, Tanrının haqq səsidi
Həqiqət orda yaşar, bəşərin naləsidi.

Əsrlərlə şairlər atılıbdı zindana,
Baş əyməyib heç zaman nə sultana, nə xana,
Soyulub dabanından, boyanıbdı al-qana,
Şair sözü müqəddəs, Tanrının haqq səsidi
Həqiqət orda yaşar, bəşərin naləsidi.

Onları qorxudammaz nə qan, nə dar ağacı,
Şair haqqı deyəndə olur sözləri acı,
Sözsüz şair yaşamaz, sözdü şairin tacı,
Şair sözü müqəddəs, Tanrının haqq səsidi
Həqiqət orda yaşar, bəşərin naləsidi.

Haqqı danan gəlməsin şairlərin yanına,
Zaman-zaman boyanıb şairlər al-qanına,
Şair doğulan gündən qeyrət çöküb qanına,
Şair sözü müqəddəs, Tanrının haqq səsidi
Həqiqət orda yaşar, bəşərin naləsidi.

Haqqın mayası yaşar şairlərin qanında
Tanrıdan söz yol gəlir göylər ərmağanında
İlham haray qoparır coşur şair qanında
Şair sözü müqəddəs, Tanrının haqq səsidi
Həqiqət orda yaşar, bəşərin naləsidi.

***Bakı, 20.7.2019***

## DÜŞÜNCƏLƏR

Qarşımda ağ kağız, əlimdə qələm,
Yenə danışıram ürəyimlə mən.
Açmışam sinəmin can dəftərini,
Yazıram dünyanın dərdi-sərini.

Hikmətli sözlər var daha dərində,
Hər sözü, mən yazam gərək yerində.
O söz ki, düşmənin dursun qəsdinə
Mərmitək şığısın düşmən üstünə.

Hər yerdə Vətənin gərəyi olsun.
İgid oğulların ürəyi olsun,
Döyüş meydanında ucalsın göyə
Azğın düşmənlərə olsun "hədiyyə".

O söz ki, səs versin əsrin səsinə
Bu yeni eranın təntənəsinə.
Vətən torpağından qovulsun yağı,
Dönsün gülüstana Vətən torpağı.

Könüllər şad olsun, ürəklər gülsün
Axan göz yaşların analar silsin.
Qoy yerdə qalmasın bir şəhid qanı,
Ellər alqışlasın Azərbaycanı!

***Bakı, 17.7.2019***

## "HALAL EHSAN"INI OXUDUM, QARDAŞ

*"Xəzan" jurnalının baş redaktoru*
*Əli bəy Azəriyə açıq məktub*

"Halal ehsan"ını oxudum qardaş,
Çox böyük bostana sən atmısan daş,
Çoxları var indi qalıbdı çaş-baş.
Haqq yolundan dönənlərə ar olsun.
Dayanma yaz, qardaş, əlin var olsun.

Vəzifə insanı yaman dəyişir,
Bir anda görürsən dönüb olur şir,
İşdən atılanda qulağı düşür.
Haqq yolundan dönənlərə ar olsun.
Dayanma yaz, qardaş, əlin var olsun.

Sınağa çəkəndə sən o Musanı,
Ehsan yeyə-yeyə qaraldı qanı,
Gərək təmiz ola insan vicdanı.
Haqq yolundan dönənlərə ar olsun.
Dayanma yaz, qardaş, əlin var olsun.

Kağızdı, qələmdi sənin həmdəmin,
Qılıncdan itidi yazan qələmin.
Yaman çoxbilmişdi o Aslan əmin,
Haqq yolundan dönənlərə ar olsun.
Dayanma yaz, qardaş, əlin var olsun.

***Bakı, 28.10.2019***

# *BƏŞƏRİ YAŞADAN ANADIR, ANA*

Havadan payızın qoxusu gəlir,
Ağaclar soyunur paltarlarını.
Deyəsən, onların yuxusu gəlir,
Zirvədə gördükcə qışın qarını.

Əsir baxçalarda xəzan yelləri,
Bağlarda son qoyub daha barına.
Düşür budaqların yarpaq əlləri,
Ağac anaların ayaqlarına.

Deyirəm, nə ola qala dünyada,
Övladlar uymaya dünya malına.
Budaqdan tökülən yarpaqlar kimi,
Düşə anaların ayaqlarına.

Şeirim ilham alır ana sözündən,
Bizi gətiribdi onlar cahana.
Bütün anaların öpək gözündən,
Bəşəri yaşadan anadır, ana.

***Bakı, 10.11.2019***

# *NƏ DEYİM*

*Xalq şairi Musa Yaquba*

Yaralı yerimdi yazdığın sözlər,
Kəsilib məhv olur yaşıl meşələr.
Meşə salmaq üçün tər tökürük, tər,
Sən yazdığın haqlı sözə nə deyim.

Gündə bir şoudan gəlirik zara
Niyə tutulmuşuq belə azara?
Qiymət verən yoxdu indi yazara,
Sən yazdığın haqlı sözə nə deyim.

Köklü-köklü ağacları qırırlar,
Yandırırlar köksünə od vururlar,
Təbiətin lap qəsdinə dururlar,
Sən yazdığın haqlı sözə nə deyim.

"Leyləklərin boş yuvası soyuq qar".
Meşələrdə görünməyir marallar,
Marallara qənim çıxan hələ var,
Sən yazdığın haqlı sözə nə deyim.

Nə deyəsən acgöz yekəqarına,
Qırqovuldan kabab çəkir yarına,
Sən bax bunun namusuna, arına,
Sən yazdığın haqlı sözə nə deyim.

***Bakı, 05.11.2019***

# *SÖZÜM QALACAQ*

Mən bir dağam, zirvələrdə qarım var,
Qorxutmaz nə boran, nə də qar məni.
Bir ağacam, budağımda barım var,
Bəslər öz qoynunda ilk bahar məni.

Yaşar ürəyimdə bütün fəsillər,
Baharam, payızam, yayam, qışam mən.
Məni oxuyacaq gələn nəsillər,
Gələcək torpağam, qara daşam mən.

Bir gün bu dünyadan köçüb gedəndə,
Demirəm həyatda gözüm qalacaq.
Xoşbəxtəm, dünyada bir şair kimi
Sevən könüllərdə sözüm qalacaq.

***Bakı, 01.11.2019***

# *İNSANLAR DƏYİŞİB*

İnsanlar dəyişib, dövran dəyişib,
Yaxşı adamlara tələ qururlar...
Haqqınan nahaqqın yeri səhv düşüb,
Dayanıb pusquda, tələ qururlar.

Şeytansız yaşaya bilməz bu dünya,
Zaman dəyişdikcə sərt külək gəlir
Hamını oynadır bu qansız dünya,
Dünyadan köçüncə min kələk gəlir.

Deyirlər: "Düz kəsər", düz olağın biz,
Siz Vətən sözünü sanmayın asan.
Yumruqtək birləşsin qoy qeyrətimiz,
Bu ana torpaqda tökülməsin qan.

Yaltağı, satqını, artır dünyanın,
Qeyrətli kişilər susmasın gərək.
Qədrini biləyin Azərbaycanın,
Vətənlə birlikdə döyünsün ürək.

***Bakı, 08.11.2019***

# KƏDƏR TÖKÜLÜR

Tanrı öz dərdimi özümə verib.
"Vətən, Vətən" deyən sözümə verib.
Ürəyim dərdimi gözümə verib,
Mənim gözlərimdən kədər tökülür.

Vətən yaraları sinə dağlayır,
Kədər ürəyimdə qubar bağlayır,
Ürəyim ağlayır, gözüm ağlayır,
Mənim gözlərimdən kədər tökülür.

Gəlir xəyalıma Şuşa dağları,
Kəlbəcər dağları, Laçın dağları,
Gözəl Qarabağın gözəl çağları,
Mənim gözlərimdən kədər tökülür.

Dərdlərim yüz deyil, bəlkə də mindi,
Vətən harayıyla ürəyim dindi,
Soruşma yaramı, yaram dərindi,
Mənim gözlərimdən kədər tökülür.

Sabaha inamla, ürəyim, öyün,
Bu kədər sevincə dönəcək bir gün.
Şuşada quraraq yenə toy-düyün
Gözümdən kədər yox, sevinc tökülər.

***Bakı, 13.11.2019***

# BU İTİN ZƏNCİRİN BAĞLAYAN YOXDU

Yalax dibi yalıyırdı bir zaman,
Bu itin zəncirin bağlayan yoxdu.
Yedi çörəyimi, qudurdu yaman,
Bu itin zəncirin bağlayan yoxdu.

Ağzından getməmiş yalımın dadı,
Dişini üstümə yaman qıcadı.
Dünyada bəllidi bu itin adı,
Bu itin zəncirin bağlayan yoxdu.

Yeyib qudurmuşdu, baxmırdı sözə,
Gedib orda, burda girirdi gözə.
Gecələr hürürdü aya, ulduza,
Bu itin zəncirin bağlayan yoxdu.

Yaman harınladı, lap nadan oldu,
Bu iti üstümə qışqırdan oldu.
Bilmədim "yan" oldu, ya ivan oldu,
Bu itin zəncirin bağlayan yoxdu.

Zəncirin gizlincə qırıb qaçıbdı,
Qonşu torpağına ayaq açıbdı.
Deyəsən, hardasa yal da içibdi,
Bu itin zəncirin bağlayan yoxdu.

Yeməyi yox, boş qalıbdı yalağı,
Sallanıbdı, yaman düşüb qulağı.
Quruyubdu tamam dili, dodağı,
Bu itin zəncirin bağlayan yoxdu.

Dostları görəndə quyruq bulayır,
Yalmanır, əyilib ayaq yalayır.
Ağzın tutub göyə hərdən ulayır,
Bu itin zəncirin bağlayan yoxdu.

Canavar xisləti var imiş bunda,
Vəhşilik axırmış damarda, qanda.
Ayağı qalıbdı Azərbaycanda,
Bu itin zəncirin bağlayan yoxdu.

# ÜRƏK GƏRƏKDİR

Dərd çəkən ürəklər qeyrətli olur,
Hər dərdi çəkməyə ürək gərəkdi.
Dözür hər ağrıya, cürətli olur.
Hər dərdi çəkməyə ürək gərəkdi.

Hər ürək hər dərdi əridə bilmir,
Axan göz yaşların kiridə bilmir,
Dərdli duyğuları çürüdə bilmir.
Hər dərdi çəkməyə ürək gərəkdi.

Elə bir ürək ki, dağlardan uca,
Ağlasın doyunca, gülsün doyunca,
Günəş tək nur saçsın ömrü boyunca
Hər dərdi çəkməyə ürək gərəkdi.

Dünyada böyük dərd Vətən dərdidi,
Çəkilməz dərdlərin bu dərd sərtidi.
Vətən dərdi çəkən, Vətən mərdidi,
Hər dərdi çəkməyə ürək gərəkdi.

Ey kövrək ürəyim, sən döz hər dərdə
Dərd çəkmək peşəndi axşam, səhərdə,
Əymə vüqarını heç vaxt, heç yerdə
Hər dərdi çəkməyə ürək gərəkdi.

***Şuvəlan, 31.10.2019***

# ŞAİR ADLA UCALMAZ

Kim deyir ki, həyatda
Şairə ad gərəkdi.
Şair Vətən bağında
Solmayan bir çiçəkdi.

Nizami ad almadı
O, şeirin sultanıdı.
Onu söz dünyasında
Bütün dünya tanıdı.

Cavidin adı yoxdu
Tale Sibirə atdı.
Zaman qiymətin verdi
Onu göyə ucaltdı.

Bu gün də öz şeirilə
Çaxır Almaz İldırım.
Ürəklərə əbədi
Axır Almaz İldırım.

Xalqın şairi olmaq
Xoşbəxtlikdi həyatda.
Sözülə ucalıbdı
Şair Əhməd Cavad da.

Elin yaddaşındadı
Bu gün Məhəmməd Hadi.
O, əbədi yaşayır,
Tarixdə qalır adı.

Xalqımın şairiyəm,
Sözü sözdən seçərəm
Mən xalqımın yolunda
Canımdan da keçərəm.

***Bakı, 04.10.2019***

# OXU MƏNİ

Ürəyimdə sözlər yatır
Açılmayıb qatı hələ,
Xəyalım göylərə çatır,
Oyadıram, gəlmir ələ.

Sinəm bir söz xəzinəsi
Misraları qatar-qatar.
Bir hikmətdi hər kəlməsi
Düzsəm onu ərşə çatar.

Sözün çiyi, bişmişi var,
Qoy ürəkdə sözü dəmə.
Sözün gəzsin diyar-diyar,
Dəm almamış onu demə.

Sərbəstdə yaz, hecada yaz
Axı bunu nə fərqi var.
Sözlərin olmasın dayaz,
Qəvvas olan dürr axtarar.

Nəsimidi söz Allahı
Ona sığmır iki cahan.
Yerə-göyə sığmır ahı,
Tapammadı kamil insan.

***Bakı, 18.09.2019***